Azad Azərbaycan

29 aprel / 2021



*Arif ƏRŞAD*

# BİR QAZAN DOVĞA

(Hekayə)

**Körpənin doğulub evə gəlməsi ilə ailəlilər üçün tikilmiş yataqxananın balaca otaqlarında sanki günəşin şəfəqləri daha da artmışdı. Mehriban ilk əvvəl çətinlik çəksə də, qapıbir qonşusu Baharın köməkliyi ilə artıq balaca körpəyə baxmaqda bir az püxtələşmişdi. Bahar, uşağın bələnməsinə, ona qulluq göstərilməsinə lazım olan qayğısını Mehribandan əsirgəmirdi. Gün ərzində qonşu otaqdan körpənin ağlamaq səsini eşidən kimi Bahar tezcə özünü onlara yetirir, uşağı ovutmaqda Mehribana kömək edirdi. O, hətta Mehribanın özünün yeməyinə də fikir verir, nəyi yemək olar, nəyi olmaz deyə məsləhətlərini də ondan əsirgəmirdi.**

Özü ali təhsilli iqtisadçı olsa da, ərinin qısqanclığı ucbatından heç bir yerdə işləməyən, evdarlıq edərək bircə qızını böyüdən Baharın Mehribanla olan ünsiyyəti onun körpəsi dünyaya gələndən sonra daha da yaxın olmuşdu. Mehriban da artıq ona zarafatla "doxtur" deyə müraciət edirdi. Zahirən gözəl olan Bahar xasiyyətcə də mehriban və ünsiyyətcil idi.

Beş il idi ki Bahar həyat yoldaşı ilə bu yataqxanada yaşayırdı. 4 yaşlı qızı Səbinə də burada dünyaya gəlmişdi. Həyat yoldaşı Elxan sürücü işləsə də, gözəl tar çalmağı da bacarırdı. Bəzən onun öz otağında ifa etdiyi muğam parçalarının səsini qonşu otaqdan Şahlar da dinləməyi xoşlayardı. Xasiyyətcə qısqanc olan Elxan həm də çox qaraqabaq idi, qonşu kişilərlə salam-əleykdən başqa heç bir ünsiyyətə girməyi xoşlamazdı. Qonşu qadınlara gəldikdə isə o, dəhlizdə üzbəüz gəlsə də belə, başını qaldırıb onlara salam verməzdi, sanki yanından ötdüyü qadını görmürdü. Bir ildən artıq qonşu otaqlarda yaşamalarına baxmayaraq, Elxanla Şahlar bir-iki dəfə bir-biri ilə dəhlizdə rastlaşmış və salam verib ötmüşdülər. Hətta onlar bir-birilərinin adlarını belə arvadlarından öyrənmişdilər. Onların yaxından tanışlığı isə qəribə bir hadisəylə bağlı idi...

Bir gün evə içgili gələn Elxan səs-küy salaraq, həyat yoldaşı ilə qovğa etməyə başlayır. Onun danışıb-söylənməsinə Baharın reaksiya verməyib, sakit oturması Elxanı daha da əsəbiləşdirir. Hirsindən həyat yoldaşına əl qaldırmaq istəyən zaman Bahar qaçaraq, özünü cəld Mehribangilin otağına salır. Evdə olan Şahlar qapıya çıxaraq, sərxoş olan Elxanı sakitləşdirməyə çalışsa da, mümkün olmur. Elxan Şahların üstünə qıcanaraq geri qayıtmaq istəmir, arvadının onların otağından çıxmasını tələb edir. Lakin Bahar ərinin hədsiz sərxoş olmasına görə öz otaqlarına qayıtmaq istəmədiyini bildirir və Şahlarla Elxan dəhlizə çıxan kimi Mehriban qapını arxadan bağlayır. Şahlar sərxoş qonşusunu çox çətinliklə şirin dilə tutaraq, onların öz otaqlarına apara bilir. O, Elxanı çarpayısına uzatmağa çalışsa da, mümkün olmur. Elxan, ağzı köpüklənə-köpüklənə, əl-qol ölçərək, "niyə mənim arvadım sizdədir?" deyə sual edir. Şahlar çiyinlərini çəkərək:

- Bunu sən özündən soruş, qardaş, - deyə ona cavab verir.

**Elxanın "yəqin sizin aranızda nəsə var" deməsiylə Şahlar əsəbiliklə onu silkələyir və:**

- Utanmırsan? O, mənim bacımdır, a yaramaz! - deyərək, ona yumruqla bir zərbə vurur.

Lakin sonradan da Şahlar heç kimə qonşusunu vurması barədə heç nə demir, hətta bu, Elxanın da yadına düşmür. Yumruğun təsirindən süst halda çarpayıya düşən Elxan bir də səhər açılanda ayılır. Axşam nə baş verdiyini Bahar ona söylədikdən sonra, "sənə ancaq Mehribangilə getməyə icazə verirəm, onun əri yaxşı oğlandır", - deyir.

O gündən etibarən Şahlarla Elxan arasında mehriban qonşuluq münasibəti yaranır, hətta Şahlar evdə olan vaxtlarda da belə Baharın Mehribangilin otağına girib-çıxması heç bir söz-söhbətə səbəb olmur...

***

- A Mehri, bu uşaq yenə niyə ağlayır?

Mehriban otağa daxil olan qonşusunu görcək, körpəsini qucağında yırğalayaraq, "nə bilim, a doxtur, yedizdirmişəm, amma yenə də ağlayır."

- Bəlkə, bir az su verəsən?

- Su da içirtmişəm, xeyri yoxdur, Şahlar gedəndən elə qucağımda yırğalayıram. Elə yerinə qoymaq istəyirəm ki, yenidən ağlayır, nəsə bu gün narahatdır.

**Bahar uşağı ondan alıb, çarpayının üstünə uzatdı. Bələyini açıb dəyişdirsə də, deyəsən, körpənin kirimək fikiri yox idi. Bahar Mehribana sarı çevrilib:**

- Tez iki qaşıq xörək duzunu qovur, yığ dəsmalın arasına, yəqin uşağın qulağı ağrıyır. Mənim qızımda da belə az olmayıb, bu hal uşaqların həmısında olur, narahat olma.

Mehriban Baharın dediyi kimi edib, dəsmalın arasına yığdığı isti duzu Bahara verdi. Bahar dəsmalın istiliyini öz üzünə vurmaqla yoxlayıb, uşağın qulağına qoydu. Bir qədər keçmiş körpə sakitləşərək, xumarlanmağa, şirin-şirin yatmağa başladı. Mehriban uşağa görə arxayınlaşaraq, ayaq üstə duran Bahara kətili işarə edərək, dedi:

- Doxtur, nə ayaq üstə durmusan, otur bir çay içək, qəşəng zoğal mürəbbəm var.

Bahar ona göstərilən kətilin üstündə əyləşib:

- A Mehri, bu uşağın qırx günü nə vaxt tamam olur? - deyə, soruşdu.

Elektik sobasının üstündə çay dəmləyən Mehriban:

- Bu gün, qırxını tökməliyəm, - deyə cavab verdi.

- Bəs onda nə oturmuşuq? Tez çayımızı içək, sonra elə birlikdə uşağın qırxını tökək də.

- Qaynanam kənddən gəlir, qoy o özü gəlib eləsin.

- Nə vaxt gələcək sənin qaynanan? Sən hələ bir neçə gün də durub onu gözləyəcəksən?

- Bahar, sən narahat olma, hər şey öz qaydasında olacaq.

**Mehriban iki stəkan çay süzdü, sonra soyuducudan mürəbbə bankasını çıxardıb, kiçik mürəbbə qablarına boşaltdı və onları masanın üstünə qoyub əyləşərək:**

- Qaynanam on gün bundan qabaq xəbər göndərib ki, bu gün gəlir. Şahlar da onu qarşılamaq üçün avtobusun qabağına çıxıb.

Bahar isti çaydan bir qurtum içərək, dedi:

- Ay Mehri, bəs uşağın adını qoymağı düşünmürsüz? Bu nədi e, Şahlar sənin üstünə atır, sən də Şahların. Uşağı da qırx gün adsız saxlamaq olar?

- Nə bilim, vallah, Şahlar deyir sən qoy, mən də ki hələ fikirləşirəm. Bəlkə elə adını qaynanam qoymaq istədi, axı birinci qız nəvəsidi.

Baharın yadına nə düşdüsə, gülümsündü:

- Birdən qaynanan uşağa qədimi adlardan qoysa, onda necə, razı olacaqsan?

- Başqa yolum var ki?

- Bizim kənddə bir kişi öz qızına anasının adını qoymuşdu - Tumanağa. Yazıq qız 16 yaşına qədər öz adını eşidəndə xəcalət çəkirdi. Elə ki pasport almaq vaxtı çatdı, tez gedib adını dəyişdi, qoydu Tünzalə. Amma nə olsun, onu tanıyanlar, bütün qohumları elə indi də onu Tumanağa deyə çağırırlar. O qızla mən düz 10 il bir sinifdə oxumuşam və istər-istəməz "tuman"ı yada salan yönsüz adına görə onun həmişə necə əziyyət çəkdiyinin şahidi olmuşam. Belə də olur ey, sən bu haqda düşünmüsən?

Mehriban çiyinlərini çəkərək:

- Nə bilim vallah, mən heç nə deyə bilmərəm, özləri bilər, - dedi.

- Mehriban, sən bilirsənmi ki, ad insan taleyində önəmli rol oynayı? Sanki hər bir adamın adı onun ömür yolunun ilkin göstəricisidir və gələcəkdə də hər kəs öz adına uyğun olmağa çalışır. Məsələn, sənin adın Mehribandır, eləmi? Sən xasiyyətcə mehriban olmaya bilərdinmi? Xeyr, bu mümkün deyil. Çünki sən özündən asılı olmayaraq həyatda da adına uyğun olmaq istəyirsən. Bax, mətbəxə yaxın otaqda yaşayan qonşumuz var ee, Şərqiyyə... Düzdür, adı "şərq" sözündən götürülüb, ancaq adında ilk olaraq səslənən "şər" sözüdür. Fikir vermisən də, yazıq həmişə problemlərin içində çabalayır. Elə bil şər qüvvələr daim onu əhatəsində saxlayır və bitib-tükənməyən problemlər ondan əl çəkmir. Məgər elə deyil?

Mehriban onun sözünə gülümsünərək:

- Bəs onda sənin də təravətli, gözəl olmağın adından irəli gəlir?

**Bahar ona göz vurub, ayağa qalxaraq güzgünün önünə keçdi, göz-qaşını süzdürərək, əlləri ilə saçlarına sığal çəkib dedi:**

- Mən martın 21-də doğulduğumdan, atam adımı Bahar qoyub. Yəqin ki mənim bahar kimi təravətli olmağımda adımın da rolu az deyil. Həmişə çalışıram ki, adım kimi gözəl, təravətli olum, adıma uyğun görünüm. Kim mənə 27 yaş verər? Baharın gəlişi insanlara yenilik, xoş əhval-ruhiyyə gətirdiyi kimi, mən də istəyirəm ki, öz münasibətimlə insanlara sevinc paylayım. Səncə bu belə...

Qapının qəfil açılması Baharın sözünü bitirməsinə imkan vermədi. Şahlar əli ilə qapını geniş açıb, ilk olaraq anasının içəri keçməsinə kömək etdi, sonra üzərinə dermontin dəri çəkilmiş iki böyük taxta çamadanı otağın bir kənarına qoydu. Bahara salam verdi və üzünü Mehribana tutub, "gəlirəm" deyərək, yaxınlıqdakı mağazaya yollandı. Mehriban, qaynanasının gəldiyini görcək, sevinclə ayağa qalxaraq:

- Xoş gəlmisən, ana, - dedi və onunla qucaqlaşıb-öpüşdükdən sonra qonşusu Baharı onunla tanış etdi:

- Ana, bu, mənim qonşum, həm də ən yaxın rəfiqəm Bahardır.

Humay arvad Baharla da görüşüb, müştəri gözüylə onu süzərək:

- Hə, qəşəng qızdır, bəlkə elə Narınca deyim, elçi gəlib, oğluna alsın? Hə, necə məsləhətdir? - deyərək, gülümsündü.

**Bahar da söz altında qalmayıb, Mehribana göz vuraraq, gülə-gülə üzünü Humay arvada tutub dedi:**

- Humay xala, bəyənib, elçi gəlmək istədiyin bu qızın özü boyda bir qızı var ey...

- Ay maşallah, heç deməzsən. Düzdür, mənim gözüm dəyən deyil, amma belə deyirlər ki, Allahın da göz dəyməsindən xəbəri yoxdur. Sən başına üzərlik hərlə, at ocağa, qızım.

- Baş üstə, Humay xala, onda mən gedim üzərlik yandırmağa, siz də söhbətinizdə olun.

Hər üçü ürəkdən gülüşdü. Bahar otaqdan çıxandan az sonra Şahlar otağa daxil oldu, mağazadan aldığı qəndi, çayı və çörəyi masanın üstünə qoyanda anası dilləndi:

- A bala, 10 büküm yuxa gətirmişəm, bəs onları kim yeyəcək? Şahlar, tez ol çamadanları ver, boşaldım, içindəkilər indiyə xarab olmasa yaxşıdır.

Mehriban, çörəkləri ayırıb, masanın bir kənarına qoyaraq:

- **Eybi yox, narahat olma, ana, bu çörəyi verərəm Bahara.**

Şahlar çamadanları bir-bir masanın üstünə qoyaraq, içindəkiləri boşaltmağa başladı. Humay arvad üzünü gəlininə tutaraq:

- A qızım, bunlar hamısı öz qapımızdandır. Əti, toyuqları yığ soyuducuya, bir aya qədər yeyin. Bu xoruzu isə Narınc xalan göndərib. Gör yumurtalar sınmayıb ki, onları da ehtiyatla düz. Şoru da, nehrə yağını da qoy soyuducuya, amma qatığa dəymə, göyərtisini də gətirmişəm, indi durub sizə qəşəng dovğa bişirəcəm.

*(Ardı var)*